

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır


# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 33 (23.920)

18 fevral 2022-ci il, cümə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


İcmal

## Sabitlik, güclü iqtisadiyyat və sosial rifaha hesablanmış qətiyyətli siyasət bundan sonrakı dinamik inkişafa da etibarlı zəmanətdir

### *Yanvar ayının ictimai-siyasi mənzərəsi cari ilin də muxtar respublikamız üçün çoxcəhətli uğurları ilə yaddaqalan olacağını deməyə əsas verir*

*Ümummilli liderimiz Heydər Əliyevin siyasi xəttinin qətiyyət və prinsipiallıqla davam etdirilməsi nəticəsində əldə olunan çoxşaxəli inkişaf, sosial rifah halının günbəgün yüksəlməsi Azərbaycanda və onun Naxçıvan Muxtar Respublikasında daha firavan gələcək üçün əsaslı zəmin yaradır. Naxçıvan müstəqillik illərində inkişaf dinamikasına görə nəinki Azərbaycanın, Qafqazın ən inkişaf etmiş, öncül regionlarından biri kimi tanınır. Ötən il də muxtar respublikada iqtisadi və sosial sahələrdə mühüm nailiyyətlər əldə olunub. Təsadüfi deyil ki, ötən ilin muxtar respublika üçün ən möhtəşəm hadisələrindən olan Azərbaycan Respublikası Prezidentinin qalib ölkənin rəhbəri və müzəffər Ordunun Ali Baş Komandanı kimi ata yurduna səfəri dövlət başçısının bu siyasi qənaəti ilə tarixə həkk olunmuşdur:* ***"Naxçıvan Muxtar Respublikası son 20 il ərzində iqtisadi artımın templərinə görə rekordsmen bölgədir".***

### *Yeni ilə möhtəşəm uğurlarla...*

Blokadanın törətdiyi, dünyanı bürüyən qlobal humanitar-iqtisadi problemlərə baxmayaraq, muxtar respublika ötən il də liderlik missiyasını əzmkarlıqla qoruyub saxlamışdır. Buna müstəqillik illərindən etibarən muxtar respublikada sabitlik, güclü iqtisadiyyat və sosial rifaha hesablanmış qətiyyətli siyasət nəticəsində nail olunmuşdur. Müstəqillik illərində muxtar respublikada ümumi daxili məhsul istehsalının həcmi 69 dəfə, sənaye məhsulunun həcmi 117 dəfə, kənd təsərrüfatı məhsullarının həcmi 15 dəfə, informasiya və rabitə xidmətlərinin həcmi 141 dəfə, əsas kapitala yönəldilən vəsaitlər 348 dəfə, nəqliyyat sektorunda yük daşınması 27 dəfə, pərakəndə əmtəə dövriyyəsi 49 dəfə, əhali gəlirləri isə 61 dəfə artmışdır. 2021-ci ildə inkişafı xarakterizə edən əsas göstərici kimi onu qeyd edə bilərik ki, ötən il ümumi daxili məhsul istehsalı 3 milyard 16 milyon 315 min manat olmuşdur. Bu da bir il öncəki göstəricidən 2,4 faiz çoxdur. Hər bir nəfərə düşən ümumi daxili məhsul isə əvvəlki ilə nisbətən 3,4 faiz artaraq 6525 manata çatmışdır. İqtisadiyyatın davamlı inkişafı əhali gəlirlərinin həcmini də artırmışdır. Muxtar respublikada orta hesabla hər nəfərə düşən əhali gəlirlərinin həcmi ötən dövrlə müqayisədə 44 dəfədən çox artaraq 2021-ci ildə 4185 manata yaxın olmuşdur.

Ötən ili də möhtəşəm uğurlarla yola salan muxtar respublika sakinləri yeni ili ulu öndərin siyasi xəttinə sonsuz inam və sədaqət hissindən doğan gələcəyə əminlik və qurub-yaratmaq əzmi ilə, bayram sevinci ilə qarşılamışdır. Yanvarın 1-də Naxçıvan şəhərində yeni ilin gəlişi münasibətilə bayram şənliyi keçirilmişdir. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov Naxçıvan şəhərinin Heydər Əliyev prospektində təşkil olunan bayram şənliyində iştirak etmiş, muxtar respublikada fəaliyyət göstərən 30 istehsal və xidmət müəssisəsi, eləcə də ailə təsərrüfatlarının təmsil olunduğu ictimai iaşə xidmətinin təşkili ilə maraqlanmış, sakinlərin bayramını təbrik etmiş, uşaqlara hədiyyələr vermişdir. Ali Məclisin Sədri 2021-ci ilin sabitlik, inkişaf, tərəqqi və sosial rifahla başa vurulduğunu bildirmiş, 2022-ci ildə də bu işlərin davam etdiriləcəyini diqqətə çatdırmış, həyata keçirilən tədbirlərdə əməyi olanlara təşəkkür etmişdir. Həmin gün muxtar respublikanın rayon mərkəzlərində də yeni il şənlikləri keçirilmişdir.

### *Muxtar respublikanın çoxcəhətli inkişaf strategiyasını fərqləndirən başlıca amil mərkəzdən ucqarlara doğru bütün yaşayış məntəqələrini əhatə etməsidir*

Naxçıvan Muxtar Respublikasındakı sabitlik və tərəqqi ümummilli liderimiz Heydər Əliyevin müəllifi olduğu inkişaf strategiyasının tərkib hissəsidir. Muxtar respublikada müstəqillik illərindən etibarən ulu öndərin siyasətinin uğurla davam etdirilməsi, iqtisadiyyatın davamlı inkişafı, əhalinin dayanıqlı məskunlaşmasını və insanların layiqli yaşayışını təmin etmək istiqamətində aparılan məqsədyönlü siyasət öz bəhrəsini verməkdədir. Bu siyasətin prioritet istiqamətlərindən birini yaşayış məntəqələrinin cəmiyyət üçün sağlam, müasir və abad yaşayış mühitinə çevrilməsi, yerlərdə müasir infrastruktur qurulması təşkil edir. Ötən dövrdə Naxçıvan şəhəri və rayon mərkəzləri ilə paralel olaraq qəsəbə və kəndlər də inkişaf etdirilmiş, sakinlərin rifahının yüksəlməsinə xidmət edən kompleks quruculuq işləri aparılmış, ən ucqar kəndlərdə müasir həyat tərzi yaradılmışdır. Ötən dövrdə muxtar respublikada 52 min 364 şagird yerlik 174 ümumtəhsil məktəbi, 250-dən çox səhiyyə obyekti, dövlət qurumlarının bir ünvanda fəaliyyətini təmin edən, müasir idarəetmə modeli olan 5 qəsəbə və 147 kənd mərkəzi, əhalinin işlə təmin olunması və rahatlığına hesablanmış xidmət mərkəzlərinin tikilərək istifadəyə verilməsi insan amilinə verilən dəyərin ifadəsidir. Qədim diyarın inkişafının yeni mərhələsinə yüksəlməsinin başlıca spesifik xüsusiyyəti həyata keçirilən quruculuq işlərinin paytaxt şəhərimiz və ya rayon mərkəzləri ilə kifayətlənməyib, mərkəzdən ucqarlara doğru bütün yaşayış məntəqələrini əhatə etməsidir.

Şərur rayonunun Çərçiboğan kəndi də hərtərəfli dövlət qayğısı ilə əhatə olunmuşdur. Kənddə geniş quruculuq işləri aparılmış, yol yenidən qurulmuş, ümumtəhsil və uşaq musiqi məktəbləri üçün yeni binalar, kənd və xidmət mərkəzləri, həkim ambulatoriyası tikilmişdir. 2022-ci il yanvarın 14-də Şərur rayonunun müasirlik xəritəsini tamamlayan, yeni ilin ilk quruculuq ünvanı olan Çərçiboğan kəndində bəhs etdiyimiz yeni sosial obyektlər istifadəyə verilmişdir.

Muxtar respublikada aparılan məqsədyönlü siyasətin prioritet istiqamətlərindən biri gənc nəslin hərtərəfli biliyə malik, vətənpərvər ruhda yetişməsi, intellektual kadr potensialının formalaşması qayğısına qalınmasıdır. Bu təhsil siyasətinin əsasını isə Naxçıvanda müasir təhsil infrastrukturunun yaradılması təşkil edir. Müstəqillik illərində muxtar respublikada 52 min 364 şagird yerlik 174 ümumtəhsil məktəbinin istifadəyə verilməsi dediklərimizə əyani sübutdur. Təkcə ötən il Şərur rayon Şəhriyar, Qarabürc, Babək rayon Araz, Göynük, Ordubad şəhər 1 nömrəli, Nüsnüs, Əndəmic, Dırnıs və Vələver kənd tam orta məktəbləri istifadəyə verilmişdir. Təhsil quruculuğundan Çərçiboğan kəndinə də pay düşmüş, 654 şagird yerlik məktəb binası istifadəyə verilmişdir. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov bu münasibətlə keçirilən tədbirdə iştirak etmişdir. Məktəbdə yaradılan müasir tədris şəraitilə tanışlıq zamanı şagirdlər yeni STEAM kabinəsinin imkanlarından yararlanaraq hazırladıqları "Xətt izləyən robot" və "Ağıllı parkinq" layihələrini təqdim etmişlər. Muxtar respublika rəhbəri elektron lövhəli sinifdə AMEA Naxçıvan Bölməsi ilə 200-dən artıq təhsil müəssisəsi arasında "Naxçıvan müstəqillik illərində" mövzusunda keçilən interaktiv dərsi izləmişdir.

Elmi-nəzəri biliklərin mükəmməl mənimsənilməsi, tədris prosesinin keyfiyyətinin yüksəldilməsi ilə yanaşı, təhsil ocaqlarında şagirdlərin hərbi-vətənpərvərlik ruhunda tərbiyəsi, fiziki sağlamlığı da diqqət mərkəzində saxlanılır ki, Çərçiboğan kənd tam orta məktəbinin müasir binasında da bu məqsədlə hərbi kabinədə lazımi şərait yaradılmışdır. Ali Məclisin Sədri hərbi peşənin əhəmiyyətini vurğulamış, gənclərin vətənpərvər ruhda böyüməsinə xüsusi diqqət yetirilməsi barədə tapşırıq vermişdir.

Qeyd edək ki, məktəbin idman zalı da bədən tərbiyəsi dərslərinin yüksək səviyyədə tədrisinə xidmət edəcək. Təhsil ocağında müxtəlif idman klubları da yaradılmışdır. Şagirdlərin məntiqi təfəkkürünün inkişafında şahmatın tədrisinin əhəmiyyəti nəzərə alınaraq məktəbdə şahmat sinfi də fəaliyyət göstərəcək.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov Çərçiboğan kənd tam orta məktəbinin pedaqoji kollektivi ilə görüş zamanı məktəbin tədrisin müasir tələbləri səviyyəsində qurularaq istifadəyə verilməsi münasibətilə kollektivi təbrik etmiş, 30 ildən artıq bir tarixə malik dövlət müstəqilliyimizin qorunub yaşadılması üçün ölkəmizdə vətənpərvər və təhsilli gənclər yetişdirilməsinin zəruriliyini, bu prosesin uğurla həyata keçirilməsində təhsil ocaqlarının başlıca rol oynadığını vurğulamışdır.



Ali Məclisin Sədri demişdir: ***"Bu gün yetişən gənclik XXI əsrdə yaşayır. XXI əsr isə yeni texnologiyalar əsridir. Məktəbdə kompüter sinfi, STEAM otağı, laboratoriyalar, kitabxana və başqa müasir tədris avadanlıqları istifadəyə verilir ki, gənclərimiz özlərini XXI əsrin gəncləri kimi hazırlaya bilsinlər. Müəllimlərin vəzifəsi isə Vətəninə, xalqına sədaqətli, vətənpərvər gənclər yetişdirməkdən ibarətdir. Bütün bunlar həyata keçirildiyi zaman ölkəmizin müstəqilliyi də uzunömürlü olacaq, Azərbaycan inkişaf etmiş ölkələr sırasında öz yerini qoruyub saxlayacaq".***

Məktəbin nailiyyətlərindən bəhs edən Ali Məclisin Sədri son 5 ildə bu nailiyyətlərin 50 faizdən yuxarı olduğunu diqqətə çatdırmış, buna görə kollektivə təşəkkür etmiş, tədrisdə uğurlar arzulamışdır.

Muxtar respublikada digər sahələrdə olduğu kimi, mədəniyyətin inkişafına da daim diqqət və qayğı göstərilir, bu istiqamətdə ardıcıl tədbirlər həyata keçirilir. Şəhər, qəsəbə və kəndlərdə müasir mədəniyyət ocaqlarının, o cümlədən musiqi məktəblərinin tikilib istifadəyə verilməsi bunun ən parlaq nümunəsidir. Muxtar respublikada 26 uşaq musiqi, incəsənət və bədii sənətkarlıq məktəbi vardır. Bunlardan 22-si müasir şəraitə malik yeni binalarla təmin olunub. Hazırda muxtar respublikanın musiqi məktəblərində 4700-dən artıq şagird təhsil alır. Musiqi məktəblərinin maddi-texniki bazasının möhkəmləndirilməsi, yeni binaların tikilməsi milli musiqimizin yaşadılması və təbliği, istedadlı musiqiçi kadrların yetişdirilməsinə böyük töhfə verir. Çərçiboğan kənd Uşaq Musiqi Məktəbi üçün müasir binanın inşa olunması da bu mərama xidmət edir. Yanvarın 14-də məktəbin yeni binası istifadəyə verilmiş, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov binada yaradılan şəraitlə tanış olmuşdur.

Məlumat verilmişdir ki, 1983-cü ildən fəaliyyət göstərən Çərçiboğan kənd Uşaq Musiqi Məktəbində 8 ixtisas üzrə 140 şagirdin təhsili ilə 21 müəllim məşğul olur. 2021-2022-ci tədris ilində məktəbə 29 şagird qəbul olunmuşdur. Təhsil müəssisəsində Xor kollektivi, Nəfəsli alətlər, Xalq çalğı alətləri, Nağaraçalanlar ansamblları və uşaqlardan ibarət həvəskar Yallı qrupu fəaliyyət göstərir.

Muxtar respublika rəhbəri musiqi məktəbinin kollektivi ilə görüşmüş, musiqi məktəbinin istifadəyə verilməsi münasibətilə kollektivi təbrik edərək 1983-cü ildən fəaliyyət göstərən musiqi məktəbinin nailiyyətlərindən, nəfəsli alətlər və uşaq yallı ansambllarının muxtar respublikanın bir çox tədbirlərində iştirakından danışmışdır. Çıxışda məktəbdə milli musiqi ilə yanaşı, dünyəvi musiqinin də öyrədilməsinin zəruriliyi, məktəbdə yeni ixtisasların açılmasına, Avropa musiqi alətlərinin tədrisinə diqqət yetirilməsinin əhəmiyyəti qeyd edilmişdir. Ali Məclisin Sədri musiqi təhsilinin pilləli olmasının zəruriliyini vurğulamış, muxtar respublikada bu sahəni seçən gənclərin daha sonra orta ixtisas və ali təhsil almaları üçün hərtərəfli şərait yaradıldığını vurğulamışdır. Qeyd olunmuşdur ki, muxtar respublikada uşaq musiqi məktəbləri, Musiqi Kolleci və Naxçıvan Dövlət Universitetinin İncəsənət fakültəsi fəaliyyət göstərir. Qarşıda duran əsas vəzifənin uşaq musiqi məktəblərində tədrisin səviyyəsini yüksəltmək və musiqi təhsili sahəsində ardıcıllığı təmin etməkdir.

Muxtar respublika rəhbəri musiqi duyumu olan gənclərin seçilməsi, onlarla xüsusi məşğul olunması, müəllimlərin vəzifələrini layiqincə yerinə yetirmələri ilə bağlı zəruri tapşırıq və tövsiyələr vermiş, kollektivə fəaliyyətində uğurlar arzulamışdır.

Muxtar respublika bütün yaşayış məntəqələrində əhaliyə nümunəvi xidmətin təşkili, sosial problemlərin çevik həlli, insanların sağlamlığı qayğısına qalınması ilə də nümunə gücündədir. Demək olar ki, bütün yaşayış məntəqələrində yaradılan kənd və xidmət mərkəzləri, həkim ambulatoriyaları, müasir yol infrastrukturu buna əyani sübutdur. Yanvarın 14-də Çərçiboğan kəndində də kənd və xidmət mərkəzləri, həkim ambulatoriyası istifadəyə verilmişdir. Açılış tədbirlərində iştirak edən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov kənd mərkəzinin binasında yerləşən təşkilatların fəaliyyəti və yaradılan şəraitlə maraqlanmışdır. Məlumat verilmişdir ki, 2 mərtəbəli kənd mərkəzində inzibati ərazi dairəsi üzrə nümayəndəlik, bələdiyyə, rabitə evi, polis sahə və baytarlıq məntəqələri, kitabxana, 339 üzvü olan Yeni Azərbaycan Partiyası ərazi ilk təşkilatı, arxiv, statistika otağı, klub, 38 yerlik zal və qazanxana yerləşir. Bildirilmişdir ki, Çərçiboğan kəndində baytarlıq xidmətinin təşkilinə xüsusi diqqət yetirilir, mütəmadi olaraq baytarlıq müşahidələri aparılır, dezinfeksiya və dezinseksiya tədbirləri görülür.

Həmin gün əhalinin rahatlığının təmin olunması istiqamətində kənddə görülən kompleks tədbirlərin digər ünvanı olan yeni xidmət mərkəzinin də açılışı olmuşdur. Burada xidmətin təşkili üçün nümunəvi şərait

*Ardı 2-ci səhifədə*

yaradılmış, 9 nəfər işlə təmin edilmişdir. Ali Məclisin Sədri xidmət mərkəzində ailə təsərrüfatı məhsullarının satışına, yerli məhsullara üstünlük verilməsi barədə tapşırıqlar vermişdir.

Sakinlərin rahatlığına xidmət edən quruculuq tədbirləri çərçivəsində abadlaşan Çərçiboğan kəndinin avtomobil yolu da yenidən qurulmuşdur. Yanvarın 14-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri ümumi uzunluğu 15,8 kilometr olan yolda yaradılan şəraitlə tanış olmuşdur.

Ölkəmizdə tibbi xidmətin müasir standartlar səviyyəsinə yüksəldilməsi, vətəndaşların sağlamlığının etibarlı təminatı, səhiyyə ocaqlarının fəaliyyətinin davamlı olaraq gücləndirilməsi dövlət siyasətinin prioritetlərindəndir. Muxtar respublikada da səhiyyə sisteminin inkişafı, bu sahənin maddi-texniki bazasının, kadr potensialının gücləndirilməsi, infrastrukturun yeniləşdirilməsi daim diqqətdə saxlanılır. Yanvarın 14-də Çərçiboğan kəndində həkim ambulatoriyası istifadəyə verilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov səhiyyə ocağının fəaliyyəti ilə maraqlanmışdır. İkimərtəbəli həkim ambulatoriyası müayinə və müalicə işlərinin, yüksək səviyyəli tibbi xidmətin təşkili üçün müasir avadanlıqlarla təchiz edilmişdir. Muxtar respublika rəhbəri sakinlərin, xüsusilə uşaqların sağlamlığına və peşə hazırlığına diqqət yetirilməsi barədə tapşırıqlar vermişdir.

Kənd sakinləri ilə görüş zamanı Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov Çərçiboğan kəndinin abad yaşayış məntəqələri sırasına qoşulması münasibətilə sakinləri təbrik edərək demişdir: ***"Həyata keçirilən tədbirlər imkan verəcək ki, kənd bundan sonra da inkişaf etsin, daha da abadlaşsın, torpaqlar əkilsin, insanların yaşayış şəraiti daha da yaxşılaşsın. Əgər bir ölkədə sabitlik varsa, o ölkə inkişaf edəcəkdir, orada insanlar rahat yaşayacaq, insanların rifah halı yaxşılaşacaqdır. Azərbaycan 30 ildir, müstəqil yaşayaraq inkişaf etmiş dünya dövlətləri sırasında öz layiqli yerini tutmuşdur. Bütün bunlara dövlət-xalq birliyi və ulu öndər Heydər Əliyev siyasi xəttinə sədaqət nəticəsində nail olunub. Ümummilli liderimiz Heydər Əliyev yolunun bəhrəsi də yaradılan bu şəraitdir".***

### *Yaradıcılıq istedadının doğurduğu fərqlilik və ya muxtar respublikanın mədəni həyatında əlamətdar hadisə*

Ümummilli liderimizin maddi-mədəni irsə varislik prinsipinin, milli mədəniyyətimizə inkişafına böyük qayğı muxtar respublikamızda da sədaqətlə davam etdirilir. Muxtar respublikada incəsənətin inkişafına yaradılan şərait rəssamlıq sənəti sahəsində də uğurların qazanılmasına şərait yaradır. Naxçıvan rəssamlıq məktəbində varislik təmin olunmuş, gənc və istedadlı rəssamlar yetişmiş, onların yaradıcılığı hərtərəfli stimullaşdırılmışdır. Bu sahədə təhsilin bütün pillələri – orta ixtisas, ali və akademik pillələri təmin olunmuş, sərgi salonları, emalatxanalar və qalereyalar istifadəyə verilmişdir. Eyni zamanda rəssamların əməyi qiymətləndirilir, fəxri adlar verilir, onlar Prezident mükafatına və təqaüdünə layiq görülürlər. Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin fəaliyyəti üçün hərtərəfli şərait yaradılmış, Ali Məclis Sədrinin sərəncamları ilə Rəssamlar Birliyinin 40 və 50 illik yubileyləri qeyd olunmuş, yeni bina istifadəyə verilmişdir. Bu günədək keçirilən "Naxçıvan-bəşəriyyətin beşiyi" Beynəlxalq rəsm festivallarında, ümumilikdə, 36 ölkədən 250-yə yaxın rəssam iştirak etmişdir. Sevindirici haldır ki, hər il Rəssamlar Birliyində onlarla sərgi açılır, yüzlərlə yeni əsər nümayiş etdirilir. Yanvarın 14-də Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin Bəhruz Kəngərli adına Sərgi Salonunda Naxçıvan Muxtar Respublikasının Əməkdar rəssamı Leyla Əzimbəyovanın "Fərqli olaraq" adlı fərdi yaradıcılıq sərgisi isə yaradıcılıq istedadının doğurduğu fərqlilik ilə muxtar respublikamızda mədəniyyət hadisəsi kimi yadda qalmışdır. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov sərginin açılışında iştirak etmişdir.

Ali Məclisin Sədri rəssamlığın özünəməxsus sənətkarlıq xüsusiyyətlərini təhlil etmiş, bu sahədə təhsillə bərabər, istedadın da mühüm rol oynadığını vurğulamışdır. Muxtar respublika rəhbəri demişdir: ***"Bu gün sərgisi keçirilən Leyla Əzimbəyovanın özünəməxsus janr üslubu var. Onun əsərlərində həyat olduğu kimi görünür, rəng seçimləri heç də bədbin deyil, əhvali-ruhiyyə yaradan rənglərdir. Leyla Əzimbəyovanın fərdi yaradıcılıq sərgisi Bakı şəhərindən sonra Naxçıvanda keçirilir, onun əsərləri ölkəmizin tanınmış rəssamları tərəfindən yüksək dəyərləndirilir".***

***"Bugünkü sərgi muxtar respublikanın mədəni həyatında bir hadisədir. Çünki Leyla Əzimbəyovanın yaradıcılığı muxtar respublikanın, ümumilikdə isə ölkəmizin rəssamlıq sənəti sahəsində yeni bir formadır, janrdır"***, – deyən Ali Məclisin Sədri bu münasibətlə rəssamları və Leyla Əzimbəyovanı təbrik etmişdir. Qeyd olunmuşdur ki, sərginin bir əhəmiyyəti də ondan ibarətdir ki, həm Bakıda, həm də Naxçıvanda satılacaq əsərlərdən əldə olunacaq vəsaitlər ölkə Prezidenti tərəfindən yaradılmış "YAŞAT" Fonduna köçürüləcəkdir ki, bu da ərazi bütövlüyümüzün bərpa olunmasında sağlamlığını itirmiş qazilərin müalicəsinə və digər işlərə sərf olunacaqdır. Ali Məclisin Sədri bu təşəbbüsə görə rəssama təşəkkür etmiş, sərginin uğurlu olmasını arzulamışdır.

Sonra sərgiyə baxış olmuşdur. Məlumat verilmişdir ki, sərgidə Leyla Əzimbəyovanın əsərləri əsasında hazırlanan "Fərqli olaraq" adlı albom-kataloqu və rəssamın 38 əsəri nümayiş etdirilir. Sərgidə rəssamın portret, peyzaj, kompozisiya və natürmort janrlarında çəkdiyi əsərlər dərin məzmunu və yaradıcılıq xüsusiyyətləri ilə seçilir. Bu əsərlərdə həyat eşqi, insan və təbiətə doğma münasibət diqqəti daha çox cəlb edir. Rəssam Leyla Əzimbəyova "Arpaçay" əsərini Ali Məclisin Sədrinə hədiyyə etmişdir.

Muxtar respublika rəhbəri bu illər ərzində qədim diyarımızda rəssamlıq sənətində əldə olunan uğurlardan, irəliləyişlərdən danışaraq qeyd etmişdir ki, hazırda muxtar respublika rəssamlarının əsərləri nəinki ölkəmizdə, həm də beynəlxalq sərgilərdə nümayiş olunur. Ali Məclisin Sədri yaradılan şəraitdən səmərəli istifadə etdiklərinə görə muxtar respublika rəssamlarına təşəkkür etmişdir.

### *Müstəqilliyimiz dönməz və əbədi, xalqımızın onu qorumaq iradəsi isə sarsılmazdır*

Ölkəmizin bugünkü qələbə, inkişaf və tərəqqisinin rəhni olan dövlət müstəqilliyimiz şanlı, keşməkeşli mübarizə tarixinə malikdir. 30 ildən artıq bir işğal tarixinə Böyük Zəfərlə son qoymağın, Vətənin azadlığı və ərazi bütövlüyü uğrunda son damla qanınadək şərəfli mübarizə aparmaq örnəyinin təməli məhz ötən əsrin 90-cı illərindən başlayan müstəqillik uğrunda mübarizə tarixi ilə qoyulmuşdur. 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə sovet ordusunun hissələri və xüsusi təyinatlılar tərəfindən Bakı şəhərində dinc əhaliyə divan tutulmuş, yüzlərlə insan qətlə yetirilmiş, yaralanmış, itkin düşmüşdür. Faciə zamanı 147 Azərbaycan vətəndaşı şəhid olmuş, 744 nəfər yaralanıb və xəsarət almış, 841 nəfər qanunsuz həbs edilmişdir.

20 Yanvar hadisələri muxtar respublikanın ən yeni tarixinə təkcə sovet qoşunlarının Bakıda törətdiyi qanlı cinayətlərlə deyil, həmin gün Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasının sərhəd kəndlərinə də erməni silahlılarının aramsız hücumları ilə də işğalçılıq faktı kimi yazılmışdır. 1990-cı il yanvarın 18-də Şərur rayonunun Kərki kəndi SSRİ Müdafiə Nazirliyinin 7-ci ordusunun köməyi ilə ermənilər tərəfindən işğal olunmuşdur. Muxtar respublikanın ərazi bütövlüyü və vətəndaşlarının həyatı təhlükə altında qaldığından, beynəlxalq Qars müqaviləsinin şərtləri kobud surətdə pozulduğundan Naxçıvan Muxtar Sovet Sosialist Respublikası Ali Soveti 1990-cı il 19 yanvar tarixli Qərarına əsasən Naxçıvan MSSR sovet imperiyasının tərkibindən çıxmışdır. 1990-cı il yanvarın 20-də, Qanlı Yanvar hadisələrinin törədilməsindən 8 saat əvvəl Sədərəyə, muxtar respublikanın digər sərhəd kəndlərinə erməni silahlı dəstələrinin hücumları başlamışdır. Ərazi bütövlüyümüz uğrunda döyüşlərdə naxçıvanlılar düşmənə qarşı mərdliklə dayanmış, qəhrəmancasına mübarizə aparmış, şəhidlər versə də, Naxçıvanı qoruyub saxlamışlar.

Azərbaycanın müstəqilliyi uğrunda canlarını qurban verənlərin xatirəsi bu gün də yüksək tutulur. Ölkə Prezidenti cənab İlham Əliyev 20 Yanvar şəhidlərinin xatirəsinin əbədiləşdirilməsi, adlarının uca tutulması, o cümlədən onların ailələrinin sosial müdafiəsinin gücləndirilməsini daim diqqət mərkəzində saxlayır, bu istiqamətdə mühüm tədbirlər həyata keçirilir. Azərbaycan xalqının 2020-ci ilin payızında Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə Ermənistan tərəfindən işğal edilmiş ərazilərinin azad edilməsi uğrunda apardığı 44 günlük Vətən müharibəsində müzəffər Ordumuzun qazandığı Zəfər şəhidlərimizin ruhuna ehtiram olmaqla yanaşı, həm də xalqımızın öz milli həmrəyliyi və mübarizliyi ilə dövlət müstəqilliyini və ərazi bütövlüyünü qorumağa hər an hazır olduğunu, inkişaf etmiş bir dövlət və xalq olaraq işğalçılıq və terror siyasətinə qarşı daim mübariz olduğumuzu bir daha sübut etdi.

Yanvarın 20-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov Qanlı Yanvar faciəsində həlak olanların və şəhidlərin əziz xatirəsini yad etmək üçün Naxçıvan şəhərindəki Şəhidlər xiyabanına gəlmiş, xiyabandakı Ana abidəsinin önünə əklil qoymuş, şəhidlərin xatirəsinə ehtiramını bildirmişdir. Ali Məclisin Sədri şəhidlərin məzarlarını və 1918-1920-ci illərdə erməni daşnakları ilə mübarizədə Naxçıvanın köməyinə gələn qardaş Türk ordusunun şəhid olmuş əsgərlərinin xatirəsinə ucaldılmış abidəni ziyarət edərək güllər qoymuşdur.

*Yanvar ayının ictimai-siyasi mənzərəsinə nəzər saldıqda bir daha aydın görünür ki, yeni ilə müxtəlif sahələrdə qazanılan möhtəşəm uğurlarla qədəm qoyan Naxçıvan Muxtar Respublikasında qazanılan sosial-iqtisadi inkişaf, əldə olunan sosial-rifah, quruculuq tədbirləri yeni ilin ilk ayında da qətiyyətlə davam etdirilmişdir. Bu isə cari ilin də muxtar respublikamız üçün çoxcəhətli uğurları ilə yaddaqalan olacağını deməyə əsas verir. Ölkə başçımızın Azərbaycanlıların Həmrəyliyi Günü və Yeni il münasibətilə dünya azərbaycanlılarına müraciətində dediyi kimi:* ***"Bu il ölkəmiz üçün uğurlu olub. Əminəm ki, 2022-ci il də uğurlu olacaq. Çünki ölkədə mövcud olan birlik, həmrəylik və gözəl ab-hava bu reallığı bizə təmin edəcək".***

**✍ Mehriban SULTAN**
***Naxçıvan Muxtar Respublikasının Əməkdar jurnalisti***

## Muxtar respublikada ilk dəfə olaraq "Microsoft" korporasiyası tərəfindən vebinar keçirilib



Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar Nazirliyi tərəfindən ixtisaslı kadrların hazırlanması, işçilərin zəruri peşə istiqaməti üzrə biliklərinin artırılması, habelə müvafiq peşə ixtisasına yiyələnmələri diqqətdə saxlanılır. Bu məqsədlə onlayn kurs və təlimlər keçirilir, əməkdaşların ixtisasartırma kurslarına cəlbi təşkil olunur. Bu tədbirlərin məntiqi davamı olaraq muxtar respublikada ilk dəfə Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar Nazirliyinin təşkilatçılığı ilə "Microsoft" korporasiyasının Azərbaycan nümayəndəliyi tərəfindən nazirliyin və struktur bölmələrinin aidiyyəti əməkdaşlarına "İnformasiya təhlükəsizliyi və kibertəhlükəsizlik", "Köhnə tətbiqlərin və proqramların müasirləşdirilməsi" və "Əşyaların interneti və ağıllı qurğuların tətbiqi" mövzularında vebinar keçirilib.

Tədbiri giriş sözü ilə açan Naxçıvan Muxtar Respublikasının rabitə və yeni texnologiyalar naziri Vüsal Sevdimaliyev Ali Məclis Sədrinin diqqət və qayğısı ilə rabitə və yeni texnologiyalar sahəsinə göstərilən dövlət qayğısından danışıb, tədbirin mahiyyəti haqqında ətraflı məlumat verib. Vurğulanıb ki, muxtar respublikada sosial-iqtisadi həyatın bütün sahələrində yeni texnologiyalar geniş tətbiq olunur. Bu sahənin maddi-texniki bazasının gücləndirilməsi, əhalinin informasiya-kommunikasiya texnologiyalarına çıxış imkanlarının yaxşılaşdırılması, mobil rabitə xidmətinin əhatə dairəsinin genişləndirilməsi hər zaman diqqətdə saxlanılıb.

"Microsoft" korporasiyasının Azərbaycan nümayəndəliyinin rəhbəri, Amerika Ticarət Palatasının Rəqəmsal Texnologiyalar və İnnovasiyalar komitəsinin sədri, Azərbaycan Sahibkarlar Konfederasiyasının İnnovasiyalar və Rəqəmsal Həllər Komissiyasının üzvü Qaçay Mirzəyev dünyanın ən qabaqcıl texnologiyalarının tətbiqindən bəhs edib. Qeyd edilib ki, proqramların müasirləşdirilməsi, yeni tətbiqlərdən istifadə developerlərin işini asanlaşdırır, onların daha peşəkar, təhlükəsiz, müasir şəkildə işləmələrinə şərait yaradır.

Təlim iştirakçılarına informasiya kommunikasiya texnologiyalarının yaratdığı kiberrisklərin minimallaşması, mümkün kibertəhdidlərin vaxtında aşkarlanması və qabaqlayıcı tədbirlərin görülməsi, sistemlərin, şəbəkələrin və proqram təminatlarının rəqəmsal hücumlardan qorunması və yaranan təhlükələr zamanı ən müasir kibertəhlükəsizlik tətbiqlərindən istifadə haqqında ətraflı məlumat verilib.

Vebinarda, həmçinin Microsoftun istifadəyə verdiyi mobil qurğular və veb üzərində çalışan bir sıra "ağıllı" qurğuların tətbiqi, köhnə tətbiqlər və o cümlədən Əşyaların İnterneti (İoT-İnternet of Things) haqqında danışılıb. Vurğulanıb ki, "Əşyaların interneti" şəbəkə ehtiyacı olmadan məlumatları bir-birinə ötürə bilən sistemlərin hamısını, bir-biri ilə əlaqəli elektronlaşmış cihazları, mexaniki və rəqəmsal cihazları, bənzərsiz identifikatorları özündə cəmləyir.

Sonda iştirakçıları maraqlandıran suallar cavablandırılıb.

***Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar Nazirliyinin mətbuat xidməti***

*Naxçıvan Biznes Mərkəzində Dövlət Miqrasiya Xidməti və Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin birgə təşkilatçılığı ilə "Əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin Naxçıvan Muxtar Respublikasında əmək fəaliyyəti ilə məşğul olmasının hüquqi tənzimlənməsi" mövzusunda tədbir keçirilib.*

## Maarifləndirici tədbirlər uğurla davam etdirilir



Dövlət Miqrasiya Xidməti rəisinin müavini Elnur Məmmədov və əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini Canməmməd Canməmmədov tədbirin məqsəd və əhəmiyyəti barədə danışıblar. Bildirilib ki, tədbir mahiyyət etibarilə Naxçıvan Muxtar Respublikasında işəgötürənlərin rahatlıqlarının təmin edilməsi, sahibkarlıq mühitinin daha da yaxşılaşdırılması, həmçinin bu istiqamətlərdə fəaliyyət göstərən sahibkarların miqrasiya qanunvericiliyinin tələblərinə əməl etməklə fəaliyyətlərinin stimullaşdırılmasına xidmət edir.

Dövlət Miqrasiya Xidmətinin baş inspektoru Həmid Muxtarlı diqqətə çatdırıb ki, muxtar respublikada miqrasiya sahəsində dövlət siyasətinin həyata keçirilməsi, miqrasiya proseslərinin və bu sahədə yaranan münasibətlərin tənzimlənməsi, qanunsuz miqrasiyanın vaxtında aşkarlanması, səmərəli və effektiv mübarizə, eyni zamanda əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin hüquqi vəziyyəti ilə bağlı bütün zəruri tədbirlərin reallaşdırılması ciddi nəzarətdə saxlanılır. Vurğulanıb ki, dövlət əmək miqrasiyası kvotasının tətbiq edilməsi və iş icazələrinin verilməsi yolu ilə əmək miqrasiyasını tənzimləyir. Əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin muxtar respublikada haqqıödənilən əmək fəaliyyəti ilə məşğul olmaları üçün əsas şərtlər iş yerinin tələblərinə cavab verən peşə hazırlığına və ya ixtisasa malik Azərbaycan Respublikası vətəndaşının iddia etmədiyi boş iş yerlərinin mövcudluğundan, işəgötürənlərin işçi qüvvəsinə olan ehtiyaclarını yerli əmək ehtiyatları hesabına təmin etmək imkanının olmamasından ibarətdir.

Sonra Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin şöbə müdiri Elmin Fərəcov muxtar respublikada əhalinin məşğulluğunun artırılması və daxili əmək bazarının qorunması məqsədilə yerli əmək ehtiyatlarından səmərəli istifadə olunmasının zəruriliyi barədə geniş məlumat verib.

Qarşılıqlı diskussiya şəraitində davam edən tədbirdə suallar ətraflı cavablandırılıb, məlumatlar slayd vasitəsilə tədbir iştirakçılarının diqqətinə çatdırılıb.

Sonda sahibkarlara maarifləndirici bukletlər paylanılıb.

***Naxçıvan Muxtar Respublikası Dövlət Miqrasiya Xidmətinin mətbuat xidməti***

# Naxçıvanın Goranboydan gələn əmək qəhrəmanı

## *Onu bu yurd yerinə olan sevgisi yaşadır...* *(Oçerk)*

***Baş redaktordan onun haqqında yazmaq tapşırığı alanda yadıma orta məktəbdə oxuduğum və müəllim işlədiyim illər düşdü. Onu da deyim ki, mətbuata bağlılığım elə o illərdən başlayıb; elə o illərdə də bu gün qələmə almağa cürət etdiyim "qəhrəmanımı" tanımışam – "Kommunist", "Azərbaycan gəncləri", "Sovet kəndi" qəzetlərindən, "Təşviqatçı" jurnalından, eləcə də digər mətbuat orqanlarından. Sonralar belə yazıların sayının artdığını görmüşəm – portret-oçerklər, müsahibələr, ona verilən mükafatlar, yubileyləri, ad günləri ərəfəsində təbriklər... Belə yazıların sayı çoxaldıqca Həvayət xanımı tanıyanlar da çoxalıb, ona hörmət və ehtiram göstərənlər də. (Və bu gün ona hörmət və ehtiram ən yüksək səviyyədədir...)***

Bunları Həvayət xanıma deyəndə bir qədər duruxdu, bir azdan üzünə təbəssüm qondu. Düşündüm ki, yəqin, yaddaşının gücünə təəccüblənir. Bir qədər yaxın tanışlıqdan sonra gördüm ki, demə, belə deyilmiş... Bir-birindən fərqli iki ictimai quruluşda yaşayan və ən maraqlısı da hər iki quruluşda böyük hörmət sahibi olan, bu günlərdə 85 yaşını tamamlayacaq, Azərbaycan Respublikası Prezidentinin Fərdi təqaüdçüsü, Sosialist Əməyi Qəhrəmanı Həvayət Qurbanova ona göstərilən etimadı, diqqət və qayğını bir insan ömrünün dəyəri hesab edir. Ömrü boyu belə yaşayıb. Qarşılaşdığı çətinlikləri dəf etməyi bacarıb; bir qədər təmtəraqlı səslənsə də, mübariz və sözü üzə deyən olub. Elə indi də belədir.

Gəlişimin məqsədini deyəndə yenə də duruxduğunu gördüm. Fikrimdən keçdi ki, deyəsən, bu təvazökar, səmimi, həm də bir az əvvəl dediyi kimi, mübariz olan qadınla söhbətim alınmayacaq. Ancaq tez də yanıldığımı başa düşdüm – "sarı sim" öz işini görə bildi...

Oğlu Mehman müəllimin stolun üstünə qoyduğu müxtəlif qəzet materialları, aldığı dövlət təltifləri, digər sənədlər söhbətimizə körpü oldu. Ədəbiyyatımızın korifey sənətkarı Əli Vəliyevin "Durna qatarı" kitabı da onların arasındadır. Süfrəyə çay gələnə qədər həmin kitabı vərəqləyirəm. Burada Həvayət Qurbanova haqqında qələmə alınmış yazıya baxıram. Xalqımız üçün ağır illərin birində – 1937-ci ildə Goranboy rayonunun Sarov kəndində dünyaya göz açıb: həm ziyalı, həm də zəhmətkeş olan bu ailə rayonda xeyirxah ailə kimi tanınıb. Diqqətimi ilk anda cəlb edən isə odur ki, o, 1969-cu ildə Gəncə Kənd Təsərrüfatı İnstitutunu Aqronom ixtisası ilə başa vuranda təkcə rayonda deyil, həmçinin ölkədə tanınmış əmək qabaqcılı kimi ad çıxarmışdı; dəfələrlə ovaxtkı rayon və kənd sovetlərinə deputat seçilmişdi, o dövrün respublika komsomol təşkilatının, həmçinin rayon partiya komitəsinin fəxri fərmanlarına layiq görülmüşdü. O yaşda gənc bir qızın belə təltiflərə layiq görülməsi heç də kiçik məsələ deyildi. Ona ən böyük etimad isə 1962 və 1966-cı illərdə VI və VII çağırış SSRİ Ali Sovetinə deputat seçilməsi və elə 1966-cı ildə həm də Sosialist Əməyi Qəhrəmanı fəxri adının verilməsi idi.

Saralmış, ancaq çox səliqə ilə saxlanılmış "Azərbaycan gəncləri" qəzetini vərəqləyirəm. "Yurdumuzun qəhrəman qızı" adlı yazı diqqətimi cəlb edir (Bu, 1966-cı ilə aid qəzetdir və Həvayət xanım kənddəki "Azərbaycan" kolxozunda işləyir, qiyabi təhsil alır): "Əmək cəbhəsinə qədəm qoyduğu gündən işgüzarlığı, işin çəmini tapmağı, torpağa bağlılığı ilə seçilən Həvayət gənc yaşlarından həyatın mənasını zəhmətdə görür. Təsərrüfatın bir sıra sahələrində çalışır, yoldaşlarına nümunədir. O bunları ucuz şöhrət xətrinə etmir; böyüdüyü ailədən gəlir onun zəhmətkeşliyi. Torpağın qədrini bilən, onun səxavətini görən hər bir kəs bu yolu seçirsə, uduzmur, şan-şöhrət sahibi olur. Elə Həvayət Qurbanova kimi... Bu yaşda çox az adam, üstəgəl qadın Sosialist Əməyi Qəhrəmanı adına layiq görülüb. Bu, Həvayətin halal haqqıdır".

Bir anda düşünürəm ki, halallıq ən müsbət insani keyfiyyətlərdən biridir; nə qədər ki, ona sığınmısan, həyat sənə istədiyini verəcək: Həvayət xanım da o yolu seçib. Məhz o yol, o yola bağlılıq Həvayət Qurbanovanı bu gün dayandığı zirvəyə yüksəldib.

...Tale elə gətirir ki, Həvayət Qurbanova naxçıvanlı Abdulla Məmmədovla ailə qurur; təbii ki, Naxçıvana gəlir. Burada bir məqamı da xatırlamaq yerinə düşər: Həvayət Qurbanova bu ailəyə gəlin köçəndə onun qayınatası Hüseyn Məmmədov da Sosialist Əməyi Qəhrəmanı idi... O da bu yüksək adı öz zəhməti ilə qazanmışdı və burada bir atalar sözü yada düşür: "Gəlin astanaya oxşar". Gəldiyi ocağa xoşbəxtlik gətirən Həvayət xanım öz xarakteri ilə ailəsinin, qohum-qonşunun məhəbbətini qazanır. Ancaq işləmək arzusu onu tərk etmir. Müraciətinə müsbət cavab alır. Bura gələnədək tanınmış bir təsərrüfat adamı, deputat, qəhrəman olduğunu nəzərə alıb onu Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyində işə qəbul edirlər. 1993-cü ilə qədər nazirlikdə baş aqronom, nazirliyin



tabeliyində olan bir sıra təşkilatlarda müxtəlif vəzifələrdə çalışır. Dövrün, daha dəqiq desək, mövcud ictimai quruluşun müxtəlif çətinlikləri ilə də üzləşir, ancaq geri çəkilmir, prinsipiallığı göstərir, istəyinə nail olana qədər inadından dönmür, gördüyü işin doğruluğuna inanır, muxtar respublikada aqrar sahənin inkişafı üçün əlindən gələni edir; yeni əkinçilik texnologiyalarının tətbiqini diqqətdə saxlayır; ağsaqqal, torpağın dilini bilən insanlardan məsləhətlər alır. Rayonlarda olur, ictimai təsərrüfatlarda çalışanlara köməyini əsirgəmir; kənd adamlarının sevimli məsləhətçisinə çevrilir. Tapşırılan vəzifələrin icrasına belə məsuliyyətlə yanaşması Naxçıvanda bu goranboylu qızın hörmətini birə-beş qat artırır.

Böyük həyat təcrübəsinə malik olan Həvayət Qurbanovanın statistik ömür yolu qısaca olaraq bunlardan ibarətdir. Və bu yol başlanandan bu günə qədər də zəngin hadisələrlə doludur ki, onu bir qəzet yazısına sığışdırmaqda, sözün həqiqi mənasında, çətinlik çəkirəm: hansını yazım, hansı qalsın?

Fikrimdən ona bir sual ünvanlamaq keçir.

***– 8 il SSRİ Ali Sovetinin deputatı kimi şərəfli bir titul daşımısınız. Bu illərdə dəfələrlə Moskvada – Ali Sovetin sessiyalarında iştirak etmişiniz. Bildiyimizə görə, Naxçıvanın böyük şan-şöhrət sahibi, Sosialist Əməyi Qəhrəmanı, deputat titulunu yüksək qürurla daşıyan Bahar xanım Talıbova ilə yaxın rəfiqə olmusunuz. Və Moskvaya səfərləriniz daha çox hansı hadisələrlə yadınızda qalıb?***

Bir qədər fikrə gedir. Düşünürəm ki, seçim qarşısındadır. Və ilk cavabından onun maraqlı müsahib olduğu qənaətinə gəlirəm:

– Bunun üçün saatlar lazımdır. Onu deyim ki, Bahar xanım hamıya qarşı səmimi idi. Ancaq mənimlə rəfiqə. Bu yaxınlıq onun ömrünün axırına qədər davam etdi. Yeri behiştlik olsun... Digər deputat yoldaşlarımı da tez-tez xatırlayıram. Xalq yazıçısı Mirzə İbrahimovla yolyoldaşlığımız da unudulmaz xatirələr sırasındadır. Biz deputat qadınlara münasibəti əsl Azərbaycan kişisinə məxsus keyfiyyət kimi yadımda qalıb. Həyatın dəyəri mənalı ömür sürmək, şərəflə yaşamaqdadır. Yaxşı ki, ətrafımdakı insanlar, övladlarım bu həqiqəti dərindən dərk edirlər, həyatın fani olmadığını düşünürlər. Yəni bu gün hansısa bir xeyirxah işə qol qoymusansa, deməli, sən qəlbdə yaşamaq hüququ qazanmısan. Bu sənin mənəvi hüququndur.

Bir anlığa gözüm evdəki kitab dolabına sataşır: burada dünya klassiklərindən tutmuş Azərbaycan ədəbiyyatının sütunları sayılan şair və yazıçıların əsərləri özünə yer alıb. Əsl ziyalı ailəsi üçün xarakterik olan bu məqam mənə xoş təsir bağışlayır. Bu yaşda belə mütaliədən qalmamasına, bəlkə də, oxuculardan inanmayanlar olar. Ancaq onunla söhbət boyu da bunu hiss etdim ki, Həvayət xanım üçün mütaliə daxili tələbatdır, mənəvi istəkdir.

Onunla söhbətimizi davam etdiririk. Bayaq dedim ki, Həvayət xanım Naxçıvana 1967-ci ildə gəlib. Ötən 55 il ərzində bu qədim diyar onun gözləri qarşısında olub:

– 1969-cu ildə ulu öndər Heydər Əliyevin Azərbaycana siyasi hakimiyyətə gəlişi, ilk günlərdən öz vətənpərvərliyi, idarəetmə bacarığı, prinsipiallığı, insan amilinə yüksək dəyər verməsi, ölkənin inkişafı naminə gecəni-gündüzə qatması doğma vətənimizi gerilikdən qurtarması Azərbaycanın Sovet İttifaqının ən inkişaf etmiş respublikalarından birinə çevrilməsi ilə nəticələndi. Regionlarda belə inkişaf yoluna düşdü. Uzağa getmədən elə muxtar respublikamızı götürək. Naxçıvanın 1969-cu ilə qədər olan və ondan sonrakı (1982-ci ilə qədər) mənzərəsini o dövrdə yaşayanlar yaxşı xatırlayırlar. Tarix üçün 13 il çox az bir dönəmdir. Ancaq məsələ elə kiçik bir dövr ərzində görülən işlərin həcmindədir.

Burada Həvayət Qurbanova bir qədər dayanır, sonra söhbətinə davam edir: – Mənim bir xoşbəxtliyim də ondadır ki, məhz o dövrdən bir qədər əvvəl Naxçıvana gəldim. Yəni ilk iki il ərzində görmüşdüm ki, Naxçıvan nə vəziyyətdədir. Və sonra Naxçıvanda geniş quruculuq tədbirlərinə başlanıldı. Düzdür, o illərdə görülən hər bir iş üçün Moskvadan icazə alınmalıydı. Heydər Əliyev dühası, cəsarəti, prinsipiallığı özünü bir daha göstərdi. Yadıma düşəni də demək istəyirəm. Kimin dediyini xatırlamadığım bir qənaətə gəlinib ki, əgər Heydər Əliyevin Azərbaycanda tikdirdiyi binaları söksən, səhralıq alınar. Doğrudan da, o illərdə nə qədər quruculuq işləri görüldü. Ulu öndər öz vəzifəsini bu işlərlə bitmiş hesab etmir, hər sahənin inkişafına atalıq qayğısı göstərirdi.

Onun Moskvaya daha böyük vəzifəyə aparılması bizi nə qədər sevindirsə də... Baxmayaraq ki, ulu öndər elə Azərbaycanı, onun bu gözəl Naxçıvan diyarını unutmur, bacardığı köməkliyi göstərirdi.

...Həvayət Qurbanova görkəmli dövlət başçısının Naxçıvana qayıdışını özünəməxsus tərzdə "bu qədim yurd yerinin üzünə gün doğması" kimi dəyərləndirir:

– O gün Naxçıvanda böyük bayram sevinci yaşandı. Görənlərin, yaşayanların heç vaxt yaddaşlarından silinməyəcək bir gün. Həmin gün Naxçıvan dünyaya yenidən doğuldu. Naxçıvanın yeni tarixi o gündən yazılmağa başlanıldı.

Həvayət xanım kimi maraqlı bir müsahibimin sözünü kəsməyə cürət etmirəm. Xatirələr məni də o illərə aparır, tariximizin yeni səhifələrinin yazıldığı dövrə. Bu barədə xeyli söhbət edirik, dəfələrlə çayımız dəyişir; ortaya şəkillər gəlir. Deyir ki, 1993-cü ildə təqaüdə çıxandan bu günədək də unudulmayıb, muxtar respublikada ən mötəbər tədbirlərə dəvət olunub, ona yuxarı başda yer göstəriblər. Müxtəlif aidiyyəti qurumların əməkdaşları ad günlərində, əlamətdar günlərdə Həvayət xanımın qonağı olublar, onu ziyarət ediblər. Dövlət səviyyəsində qayğı göstəriblər. Bu gün də eləcə.

2002-ci ildə daha bir böyük dövlət qayğısını görən – Prezidentin fərdi təqaüdünə layiq görülən Həvayət xanımdan bugünkü Naxçıvan barədə soruşanda sanki üzü gülür:

– Görünən dağa nə bələdçi, ay oğul. Buraya ölkənin digər regionlarından, yaxın, uzaq xarici ölkələrdən gələnlərə deməsən ki, Naxçıvan blokada şəraitində bunlara nail olub, inanmazlar. Düşünərlər ki, blokada şəraitində belə inkişaf yolu keçilə bilməz. Həqiqət isə budur ki, məhz Heydər Əliyev yoluna sədaqətin, naxçıvanlıların öz torpaqlarına sevgisinin təcəssümü qədim diyarı ən inkişaf etmiş bir məmləkətə çevirib. Söhbətinə bir qədər ara verib mənim Naxçıvan televiziyasına baxıb-baxmamağımı soruşur. Gündəlik olaraq baxdığımı deyirəm. Həvayət xanım sözünə davam edir:

– Quruculuq tədbirləri haqqında hazırlanmış verilişlər bugünkü Naxçıvan haqqında hər şeyi deyir. Belə verilişlərə baxanda deyirəm ki, kaş gənclik illərim bu dövrə düşərdi. Sonra da fikirləşirəm ki, nə fərqi var? Elə bu yaşımda da yaşadığım bu gözəl diyarın sürətli inkişafını görürəm. Fəxr edirəm ki, övladlarıma, nəvələrimə bu dövrü görmək qismət olub. Bugünkü naxçıvanlı üçün məktəb, xəstəxana, yol, rabitə problemi yoxdur. Hətta ən ucqar kəndlərdə belə. Yeri gəlmişkən, deyim ki, Naxçıvanın bugünkü inkişafını Bakıda da izləyirlər. Mətbuatda buna tez-tez rast gəlirəm. Elə bu ay ərzində "Azərbaycan" qəzetində Naxçıvanla bağlı bir neçə yazı oxumuşam. Onlardan biri Naxçıvanda inkişafın kəndlərdən başladığı barədə idi. Doğrudan da, belədir. Bunu televiziya ekranlarında da görürük, Naxçıvana gələnlər verdikləri müsahibələrində də gördüklərini etiraf edirlər. Diyarımızda sabitliyin təmin olunması, hər bir işçinin öz vəzifəsinə məsuliyyətlə yanaşması, ağsaqqal sözünün keçərli olması... daha nə deyim... yeni istehsal sahələrinin yaradılması... bütün bunlar ki hamımızın gözü qarşısındadır. Milli-mənəvi dəyərlərin qorunması, təhrif olunmuş tariximizin yenidən araşdırılması, abidələrimizə doğma münasibət... Bütün bunlar güclü iradə sahibinin gərgin əməyinin, doğma yurduna olan böyük sevgisinin, ən əsası isə vətənpərvərlik əzminin bəhrəsidir.

Həvayət Qurbanova deyir ki, arabir ailə üzvləri ilə yığışıb gözəl Naxçıvanımızın ən ucqar şəfalı yerlərinə üz tuturlar – Batabata, Gəmiqayaya, Əlincəqalaya və digər ünvanlara. Oralarda xeyli turistin olduğu onlara bir dünya sevinc bəxş edir ki, Naxçıvanda yaşayırlar...

Elə yeri gəlib. Ailəsi barədə soruşuram. Üç övlad böyüdüb – 2 oğul, 1 qız. Onların biri ali, ikisi orta ixtisas təhsillidir. Hər biri öz ixtisasına uyğun işdə çalışır. Həvayət xanımın 7 nəvəsi, 2 nəticəsi var. Artıq ailə quran və Həvayət xanıma ilk nəticə sevinci yaşadan böyük nəvəsi nənəsinin adını qürurla daşıyır. Ona müraciət edirəm:

– Bu adın məsuliyyətini dərk edirsənmi?

Nəvə Həvayətin də, nənə Həvayətin də üzlərində yaranan təbəssümü görürəm. Bu suala da nənə cavab verir:

– Hamısını sağ olsunlar. Fəxr edirəm ki, onların yolunda çəkdiyim zəhmət itməyib. Arzu edirəm ki, bundan sonra da xoş sədalarını eşidəm.

Onu 85 yaşının tamam olması münasibətilə "Şərq qapısı" qəzetinin kollektivi adından təbrik edir, sağlam ömür arzulayır və işə qayıtmağa hazırlaşıram. O da bizi təbrik edir:

– İki ay əvvəl qəzetinizin 100 illik yubileyinin dövlət səviyyəsində böyük təntənə ilə qeyd olunduğunu həm televiziyada gördüm, həm də qəzetinizdə oxudum. Xeyli sevindim. Gec də olsa, qəzetinizin daimi oxucusu kimi həm mükafatlandırılan əməkdaşlarınızı, həm də bütün kollektivinizi təbrik edir, şərəfli və məsuliyyətli işinizdə sizə uğurlar arzulayıram.

**Muxtar MƏMMƏDOV**
***Naxçıvan Muxtar Respublikasının Əməkdar jurnalisti***

# Pedaqoji təcrübəyə start verilib



"Naxçıvan" Universitetində 2021-2022-ci tədris ilinin ikinci semestrinə aid pedaqoji təcrübənin başlanğıc konfransı keçirilib. Konfransda universitetin rektoru, dosent Nurlana Əliyeva çıxış edərək bildirib ki, pedaqoji təcrübə kadr hazırlığının ən vacib sahələrindən biridir. Pedaqoji təcrübə prosesində əvvəlki semestrlər ərzində ixtisas fənlərinin, pedaqogika və psixologiyanın əsaslarına yiyələnən bakalavrlar qazandıqları nəzəri bilik, metodik məlumatlar, pedaqoji və psixoloji dəyərlərlə praktik fəaliyyət meydanına qədəm basırlar. Təhsilalanların yaxşı bir mütəxəssis kimi hazırlığı məhz praktik yolla başa çatır, nəzəri biliklər pedaqoji təcrübə müddətində icra oluna-oluna mənimsənilir. Bu yolla pedaqoji təfəkkür, pedaqoji qabiliyyət formalaşır ki, bunlar da pedaqoji səriştənin vərdiş halında möhkəmlənməsinə səbəb olur.

Konfransda Naxçıvan Muxtar Respublikasının təhsil naziri Rəhman Məmmədov çıxış edərək təcrübənin keçiriləcəyi ümumtəhsil məktəblərinin şəraitindən danışıb. Nazir vurğulayıb ki, təcrübə müddətində Təhsil Nazirliyi tərəfindən tələbələrin yüksək səviyyədə praktik iş qabiliyyətinə yiyələnmələri diqqətdə saxlanılacaq.

Tədris və tərbiyə işləri üzrə prorektor Hüseyn Bağırsoylu bildirib ki, ali təhsil ocağının bakalavriat səviyyəsinin II və IV kurslarında müxtəlif ixtisaslar üzrə təhsil alan 195 tələbəsi fevralın 16-dan aprelin 6-dək Heydər Əliyev adına tam orta məktəbdə, Naxçıvan şəhər 11, 12 və 15 nömrəli tam orta məktəblərdə on yeddi həftəlik pedaqoji təcrübədə olacaqlar.

Pedaqogika və psixologiya kafedrasının müəllimi Təranə Əliyeva "Təcrübə zamanı pedaqoji və psixoloji işlər" mövzusunda çıxış edib.

Sonda pedaqoji təcrübə ilə bağlı metodik vəsaitlərin yer aldığı sərgiyə baxış olub.

***"Naxçıvan" Universitetinin mətbuat xidməti***

## *“Naxçıvan ədəbi prosesi-2021”* mövzusunda elmi konfrans



*AMEA Naxçıvan Bölməsi və Naxçıvan Muxtar Respublikası Yazıçılar Birliyinin birgə təşkilatçılığı ilə “Naxçıvan ədəbi prosesi-2021” mövzusunda elmi konfrans keçirilib.*

Konfransı giriş sözü ilə AMEA Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyev açıb. Bildirib ki, konfransın əsas məqsədi Naxçıvanda ədəbi mühit, ədəbi proses məsələləri, 2021-ci ildə qələmə alınan lirik, epik, dram əsərlərinin mövzu, ideya və sənətkarlıq xüsusiyyətləri, bu istiqamətdə yazılmış elmi, publisistik məqalələrin, kitab və monoqrafiyaların, bütövlükdə, elmə qazandırdığı yeniliklərin təhlili bu sahənin zənginləşdirilməsinə töhfə verməkdədir.

Qeyd olunub ki, əvvəlki illərdə də AMEA Naxçıvan Bölməsinin İncəsənət, Dil və Ədəbiyyat İnstitutunda akademik İsa Həbibbəylinin rəhbərliyi ilə Naxçıvan ədəbi mühiti və ədəbi proses məsələləri əhatəli tədqiq olunmuş, bu ənənə institut əməkdaşları tərəfindən hazırda da davam etdirilir. Naxçıvan ədəbi prosesinin tədqiqi və təbliği məqsədi daşıyan konfransın davamlı keçirilməsi, aparılan araşdırma və müzakirələr, konfrans materiallarının nəzərdə tutulan nəşri gələcəkdə bu sahənin tədqiqatçıları üçün dəyərli mənbə ola bilər.

Naxçıvan Muxtar Respublikası Yazıçılar Birliyinin sədri, şair-dramaturq Asim Yadigar konfransda “Naxçıvanda ədəbi proses-2021” mövzusunda məruzə edib. Məruzəçi Naxçıvan ədəbi mühitinin yetirmələrinin ötən il ərzində 52 kitabının nəşr olunduğunu diqqətə çatdırıb. Naxçıvan Muxtar Respublikası Yazıçılar Birliyinin fəaliyyəti haqqında məlumat verib, muxtar respublikada fəaliyyət göstərən təşkilatlarla birlikdə əlamətdar tarixi günlər, eləcə də ədəbiyyatımızın təbliği məqsədilə müxtəlif tədbir, elmi konfrans, müsabiqə və poeziya gecələrinin keçirildiyini bildirib. 2021-ci ildə ərsəyə gələn lirik, nəsr və dram əsərlərinin ideya istiqamətləri, bədii xüsusiyyətləri, həyata keçirilməsi nəzərdə tutulan bəzi məsələlər barədə konfrans iştirakçılarını məlumatlandırıb.

“2021-ci ildə Naxçıvanda ədəbiyyatşünaslıq, ədəbiyyatşünaslıqda Naxçıvan” mövzusunda məruzə edən İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun icraçı direktoru, filologiya üzrə fəlsəfə doktoru, dosent Elxan Məmmədov ötən ilin sentyabr ayının 21-də Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsinin fəaliyyəti və qarşıda duran məsələlər barədə keçirilmiş müşavirədə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin qarşıya qoyduğu bəzi vəzifələrin icrası istiqamətində institutda yerinə yetirilən işlər barədə yığcam məlumat verib. Ötən 2021-ci ilin ölkəmizdə “Nizami Gəncəvi ili” elan olunması, aşıq ədəbiyyatının görkəmli nümayəndəsi Aşıq Ələsgərin anadan olmasının 200 illiyi ilə əlaqədar müxtəlif tədbirlərin keçirildiyini, aparılan araşdırmaların elmi və publisistik məqalələrdə əksini tapdığını söyləyib.

İnstitutun Ədəbiyyatşünaslıq şöbəsinin müdiri, filologiya üzrə fəlsəfə doktoru, dosent Ramiz Qasımov “2021-ci ildə Naxçıvan ədəbi mühitində poeziyanın inkişafı”, aparıcı elmi işçi, filologiya üzrə fəlsəfə doktoru, dosent Aygün Orucova “2021-ci ildə Naxçıvan ədəbi mühitində nəsr: axtarışlar, tapıntılar” və böyük elmi işçi, filologiya üzrə fəlsəfə doktoru Leyla Səfərova “2021-ci il Naxçıvan ədəbi mühitinin publisistik mənzərəsi” mövzulu məruzə ediblər.

Sonra məruzələr ətrafında müzakirə aparılıb.

***AMEA Naxçıvan Bölməsinin mətbuat xidməti***

## Sahibkarlar üçün maarifləndirici tədbirlər keçirilib



Naxçıvan Muxtar Respublikasında fəaliyyət göstərən sahibkarlar üçün “Azərbaycan Respublikasının Vergi Məcəlləsinə edilmiş əlavə və dəyişikliklər”lə bağlı maarifləndirici görüşlər keçirilib.

Çıxışlarda bildirilib ki, sosial xarakterli güzəştlərdən ən önəmlisi şəhid olmuş şəxslərin ailə üzvlərinə və hərbi əməliyyatlar nəticəsində sağlamlıq imkanları məhdudlaşmış hərbi qulluqçulara və mülki şəxslərə dövlət tərəfindən göstərilən diqqət və qayğının davamı olaraq bu kateqoriyaya aid fiziki şəxslərə verilən və məqsədli təyinatından asılı olmayaraq, maddi yardımların 20000 manatadək olan hissəsinin gəlir vergisindən azad olunmasıdır. Nəzərə çatdırılıb ki, sahibkarlıq subyektlərinin vergi yükünün azaldılması və sahibkarlıq fəaliyyətinin təşviq edilməsi istiqamətində edilmiş dəyişikliyə əsasən 2022-ci ilin 1 yanvar tarixindən 3 il müddətində kənd təsərrüfatı məhsullarının topdan və pərakəndə qaydada satışı zamanı əlavə dəyər vergisinin (ƏDV) ticarət əlavəsindən hesablanması, habelə kənd təsərrüfatı texnikalarının operativ lizinqə verilməsi və kənd təsərrüfatı məhsullarının istehsalı ilə bağlı aqrotexniki xidmətlər ƏDV-dən azad olunub. Bu sahədə Vergi Məcəlləsinə edilmiş daha bir dəyişikliyə uyğun olaraq elektron kitablar istisna təşkil etməklə, KİV məhsullarının və kitabların, habelə dərslik komplektlərinin idxalı və satışı, həmin məhsulların istehsalı ilə bağlı rulon və vərəqə şəklində kağızın idxalı və satışı ƏDV-dən azad olunub. Bundan əlavə, reklam xidmətləri istisna olmaqla, KİV məhsullarının və kitabların, o cümlədən elektron kitabların, habelə dərslik komplektlərinin istehsalı ilə bağlı redaksiya, nəşriyyat və poliqrafiya fəaliyyəti ƏDV-dən azad edilib.

Diqqətə çatdırılıb ki, insanların zərərli vərdişlərdən uzaqlaşdırılması məqsədini daşıyan vergitutma bazasının genişləndirilməsi istiqamətində məcəlləyə edilmiş dəyişikliyə əsasən 2022-ci il 1 yanvar tarixdən Azərbaycan Respublikasında istehsal olunan içməli spirtin, arağın, tündləşdirilmiş içkilərin və tündləşdirilmiş içki materiallarının, likörün və likör məmulatlarının, konyak və konyak materiallarının hər litrinə görə aksiz dərəcəsi artırılıb.

Keçirilən tədbirlərdə sahibkarları maraqlandıran suallar cavablandırılıb.

***Naxçıvan Muxtar Respublikası***
***Dövlət Vergi Xidmətinin mətbuat xidməti***

## Beynəlxalq iqtisadi əlaqələr genişlənir



*“Cahan Holding” Kommersiya Şirkətlər İttifaqının və Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondunun (AZPROMO) təşkilatçılığı ilə 7-9 fevral tarixlərdə İran İslam Respublikasının Tehran şəhərində “İran Plast” sərgisi keçirilib.*

Sərginin təşkil edilməsində məqsəd iri sahibkarların, sənaye müəssisələrinin bir-birini tanıması, məhsul mübadiləsi və qarşılıqlı əlaqələr qurmaq olub. 25 ölkədən 200-ə yaxın şirkətin iştirak etdiyi sərgidə “Cahan Sənaye Kompleksi” Açıq Səhmdar Cəmiyyətinin Plastik Məmulatları Zavodunun nümayəndələri iştirak ediblər. Üç gün davam edən sərgidə “Magna” plastik məmulatları məhsullarının çeşidləri, növləri, keyfiyyət göstəriciləri, ixracatı və bazarda tutduğu mövqeyi haqqında ətraflı məlumatlar verilib. Həmçinin ilkin görüşlər keçirilib, xüsusi təkliflər irəli sürülüb.

Qeyd edək ki, ölkəmizdən kənarda belə tədbirlərin keçirilməsi qarşılıqlı münasibətlərin yaranmasına və iqtisadi əlaqələrin inkişafına müsbət təsir edir.

* * *

Azərbaycan Sahibkarlar Konfederasiyasının və “Business Consulting” şirkətinin təşkilati dəstəyi ilə Yaponiyanın “TET International Development” şirkətinin Bakı ofisinin prezidenti Taro Savada və vitse-prezidenti Munechika Tanio tərəfindən Yaponiyada iyun ayında keçiriləcək “JAPAN FOOD-2022” sərgisində Azərbaycan şirkətlərinin iştirakı ilə bağlı təqdimat-məlumatlandırma sessiyası keçirilib. Sessiyada Naxçıvan Muxtar Respublikası Sahibkarlar Konfederasiyasının nümayəndələri də iştirak ediblər.

30-a yaxın şirkət nümayəndəsi və sahibkarın iştirak etdiyi tədbirdə “Cahan Holdinq” Kommersiya Şirkətlər İttifaqı və “Ləzzət Qida Sənaye” Məhdud Məsuliyyətli Cəmiyyətinin nümayəndələri təmsil olunublar.

Sessiyada Yaponiyanın “TET International Development” şirkətinin təmsilçiləri ixrac potensiallı yerli qida məhsullarının Yaponiya bazarına ixracı və satışı ilə bağlı davamlı şəkildə Azərbaycan sahibkarlarına və şirkətlərinə dəstək göstərilməsində maraqlı olduqlarını bildiriblər. Tədbirdə yerli sahibkarlar tərəfindən istehsal olunan qida məhsullarının Yaponiyaya ixracı ilə bağlı suallar cavablandırılıb.

Qeyd edək ki, Yaponiya şirkətinin təmsilçisi Taro Savada Naxçıvanda istehsal olunan qida məhsullarının keyfiyyətini xüsusilə vurğulayıb.

***“Cahan Holdinq” Kommersiya***
***Şirkətlər İttifaqının mətbuat xidməti***

## Gənclərlə növbəti görüş



Ağbulaq İstirahət Mərkəzində gənclərin “Qış məktəbi” çərçivəsində keçirilən görüşlərin ardınca sayca üçüncü dəfə analoji tədbir həyata keçirilib. Belə ki, Naxçıvan Muxtar Respublikasının gənclər və idman naziri Ramil Hacı adıçəkilən məkanda rayonlardan olan gənclər, eləcə də ali və orta ixtisas təhsili müəssisələri tələbə-gənclər təşkilatlarının nümayəndələri ilə görüşüb.

Nazir bildirib ki, muxtar respublikada gənclərlə iş sahəsinə xüsusi önəm verilir və bu sahədə məqsədyönlü, ardıcıl tədbirlər görülür. Yaradılan şərait, atılan addımlar imkan verir ki, gənclərimiz müxtəlif istiqamətlər üzrə yeni karyera və iş imkanları, o cümlədən təcrübə əldə edə bilsinlər. İstedadlı gənclərə dövlət dəstəyinin göstərilməsi, onların əməyinin qiymətləndirilməsi, gənc kadr kimi irəli çəkilmələri də belə tədbirlər sırasındadır. Bütün bunlarla yanaşı, gənclərin fəaliyyətində təşəbbüskarlıq cəhdlərinin artırılması, onların yeni fikir, ideya, təklif və layihələrlə gündəmə gəlməsinə nail olmaq lazımdır.

Səmimi söhbət zamanı iştirakçıların fikir və təklifləri dinlənilib, müxtəlif məsələlər ətrafında müzakirələr aparılıb.

***Naxçıvan Muxtar Respublikası Gənclər və***
***İdman Nazirliyinin mətbuat xidməti***

## *“Qaralar”* təslim oldu



Naxçıvan Şahmat Mərkəzində keçirilən kişilər arasında şahmat üzrə Azərbaycan çempionatında final oyunu və üçüncü yer uğrunda görüş keçirilib. Həlledici qarşılaşmada beynəlxalq usta Məhəmməd Muradlı (2528) ağ fiqurlarla qrossmeyster Misrətdin İsgəndərovu (2566) sınağa çəkib. Bu görüşdə də qaralar özlərinin ənənəvi Qrünfeld müdafiəsini oynamağa çalışıblar. Lakin ağlar tərəfindən edilən “h4” gedişindən sonra qaraların fərqli reaksiyası nəticəsində planda üstünlük vəziyyəti yaranıb. Nəticədə, ağlar mittelşpildə üstünlüyünə nail olub və oyunun sonunda qarşılıqlı buraxılmış səhvlərə baxmayaraq, qələbəni təmin ediblər.

Üçüncü yer uğrunda görüşdə isə qrossmeyster Vasif Durarbəyli (2615) qrossmeyster Aydın Süleymanlı (2530) ilə qarşılaşıb. Ağ fiqurlarla oynayan Vasif debütdən aldığı üstünlüyü qələbəyə qədər aparıb.

Bu gün rəqiblər arasında daha bir oyun keçiriləcək və çempionatın mükafatçıları məlum olacaq.

Qeyd edək ki, iki klassik oyundan sonra qalib müəyyən edilməzsə, rəqiblər nəzarət vaxtı – oyunun sonuna qədər 15 dəqiqə və hər gedişə 10 saniyə əlavə olunmaqla iki oyun və əgər yenə də hesabda bərabərlik olarsa, 5'+3" nəzarət vaxtilə daha iki oyunda qalibi müəyyən etməyə çalışacaqlar. Sonda bərabərlik halında “Armageddon”da ağlara 5 dəqiqə, qaralara isə 4 dəqiqə nəzarət vaxtilə qalibi müəyyən edəcəklər; heç-heçə qaraların qələbəsi kimi qəbul olunur.

**✍ Ceyhun MƏMMƏDOV**


### Naxçıvan Muxtar Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsi
### *aşağıdakı obyektlərin tikintisi üzrə təkliflər sorğusu elan edir*

1. Şərur rayonunun Həmzəli kənd 7,4 kilometr uzunluğunda avtomobil yolunun yenidən qurulması
2. Şərur rayonunun Vərməziyar kənd 5,5 kilometr uzunluğunda avtomobil yolunun yenidən qurulması
3. Şərur rayonunun Alışar kənd 5 kilometr uzunluğunda avtomobil yolunun yenidən qurulması
4. Babək rayonunun Cəhri-Aşağı Buzqov 29,6 kilometr uzunluğunda avtomobil yolunun yenidən qurulması
5. Babək rayonunun Vayxır kənd 11,4 kilometr uzunluğunda avtomobil yolunun yenidən qurulması
6. Ordubad rayonunun Vənənd-Pəzməri kənd 22,1 kilometr uzunluğunda avtomobil yolunun yenidən qurulması
7. Ordubad rayonunun Azadkənd kəndində 11,8 kilometr uzunluğunda avtomobil yolunun yenidən qurulması

***Təkliflər sorğusunun əsas şərtləri:***

– Görüləcək işlərin minimum dəyəri və qısa vaxt əsas meyardır.

– İddiaçının analoji işlərdə təcrübəsi, işin təşkili (kadr potensialı və tikinti texnikası haqqında məlumat) və onların maliyyə vəziyyəti əsas götürülür.

– İddiaçılar sorğuda iştirak etmək üçün Naxçıvan Muxtar Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin aşağıda qeyd olunmuş hesabına 100 manat məbləğində iştirak haqqı keçirməlidirlər.

***Bankın rekvizitləri***: Naxçıvan Bank ASC
Bank kodu: 505152
VÖEN: 0200432771
Müxbir hesab:
AZ18NABZ01350100000000090944
SWİT BİK: NAXBAZ-22

***Komitənin rekvizitləri:***
Hesablaşma hesabı: AZ13NAXB38030000000205000AZN
VÖEN: 0200005051

İddiaçılar sorğuda iştirak etmək üçün Naxçıvan Muxtar Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsindən müvafiq sənədləri 24 fevral 2022-ci il tarixədək ala bilərlər (Nizami küçəsi 30)

Təkliflər sorğusu sənədlərinə aşağıdakı ardıcıllıqla göstərilən tarixlərdə baxılacaqdır:

1. Şərur rayonunun Həmzəli kənd 7,4 kilometr uzunluğunda avtomobil yolunun yenidən qurulması 9 mart 2022-ci il saat $10^{00}$
2. Şərur rayonunun Vərməziyar kənd 5,5 kilometr uzunluğunda avtomobil yolunun yenidən qurulması 9 mart 2022-ci il saat $12^{00}$
3. Şərur rayonunun Alışar kənd 5 kilometr uzunluğunda avtomobil yolunun yenidən qurulması 11 mart 2022-ci il saat $10^{00}$
4. Babək rayonunun Cəhri-Aşağı Buzqov 29,6 kilometr uzunluğunda avtomobil yolunun yenidən qurulması 11 mart 2022-ci il saat $12^{00}$
5. Babək rayonunun Vayxır kənd 11,4 kilometr uzunluğunda avtomobil yolunun yenidən qurulması 14 mart 2022-ci il saat $10^{00}$
6. Ordubad rayonunun Vənənd-Pəzməri kənd 22,1 kilometr uzunluğunda avtomobil yolunun yenidən qurulması 14 mart 2022-ci il saat $12^{00}$
7. Ordubad rayonunun Azadkənd kəndində 11,8 kilometr uzunluğunda avtomobil yolunun yenidən qurulması 16 mart 2022-ci il saat $10^{00}$

Təkliflər sorğusu ilə əlaqədar məlumat almaq üçün maraqlı olan təşkilatlar Naxçıvan Muxtar Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinə müraciət edə bilərlər.

***Əlaqə telefonu: 545-02-28***



***İtmişdir***

Şərur rayonunun Alışar kənd sakini Səfərov Əhəd Abdulla oğlunun adına olan JN-415 inventar nömrəli dövlət aktı itdiyindən etibarsız sayılır.

* * *

Əliyev Nicat Nüsrət oğlunun adına olan hərbi şəxsi vəsiqə itdiyindən etibarsız sayılır.



**ŞƏRQ *qapısı***

**Baş redaktor:**
**MEHRİBAN SULTANOVA**

**Ünvan:** ***AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 14.***

***Telefonlar: Məsul katib: 545-62-47***
***Şöbələr: 545-81-44, 545-51-18***
***Müxbirlər: 545-75-21, Faks: 544-52-52***
**E-mail:** ***serqqapisi@nakhchivan.az***

**Qeydiyyat №: 575**

*Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır*

***Nömrəyə məsul:*** **Səbuhi Həsənov**

*Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.*

**Tiraj: 1500. Sifariş № 165**